# ANTİTERROR ŞƏHİDLƏRİ - VƏTƏNİ BÜTÖV EDƏNLƏR

*Günlərlə, aylarla üzərində işlədiyim, müxtəlif mənbələrdən, KİV məlumatlarından istifadə etdiyim və toplu halında birləşdirdiyim məlumat toplusunun növbəti məqalələrini Sizə təqdim edir, Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!*

## BAYRAMOV İXTİYAR BAYRAM OĞLU



Şəhid gizir İxtiyar Bayram oğlu Bayramov 1 may 1998-ci ildə Quba rayonunun Qalayxudat kəndində anadan olmuşdur. Evin tək oğlu olan İxtiyar eyni zamanda ailəsinin iki övladından biri idi. 2004-2013-cü illərdə Quba rayon Qalayxudat kənd tam orta məktəbində orta təhsil almışdır. Sonra isə ailəsi ilə birgə Quba rayonunun Dağlı kəndinə köçmüşdür. 2017-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Quba rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. 2018-ci ilin iyulunda hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki fəaliyyət göstərmiş, müxtəlif sahələrdə çalışaraq ailəsinə kömək etmişdir. 2020-ci ildə Müddətdən Artıq Həqiqi Hərbi Xidmət kurslarına yazılan İxtiyar Bayramov kursları bitirdikdən sonra həmin ilin avqustunda Azərbaycan Silahlı Qüvvələrinin sıralarında Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu olaraq xidmətə başlamışdır. Qısa müddət ərzində Gizirlik kursundan da uğurla keçən İxtiyar Bayramov hərbi xidmətini gizir rütbəsində davam etdirmişdir.

Azərbaycan Ordusunun giziri olan İxtiyar Bayramov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, böyük qəhrəmanlıq nümunəsi göstərmişdir. Xüsusilə, Qarabağımızın alınmaz qalası olan gözəl Şuşamızın yenidən azadlığına qovuşması uğrunda gedən hərbi əməliyyatlarda böyük igidliyi və qəhrəmanlığı ilə seçilmişdir. Gizir İxtiyar Bayramov Vətən müharibəsində göstərdiyi əvəzsiz xidmətlərə görə müharibə bitdikdən sonra cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə, həmçinin baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir. O, müharibədən sonra Beyləqan rayonunda yerləşən «N» saylı hərbi hissədə hərbi xidmətini davam etdirmişdir.

Qəhrəmanımızın öz gələcək həyat yolu ilə bağlı bitməz, tükənməz arzuları var idi. 23 iyul 2023-cü ildə onun böyük təmtəraqlı toyu olmuşdur.

Lakin 2023-cü ilin sentyabrında gözəl Qarabağımızda şər yuvası quran erməni separatçılarının dəfələrlə etdikləri təxribatlar İxtiyarın və onunla birgə neçə-neçə qəhrəmanımızın arzusunu üreyində qoydu. Rəşadətli Azərbaycan Ordusu ermənilərin təxribatına 19 sentyabr 2023-cü ildə lokal xarakterli antiterror tədbirləri ilə cavab verdi. İxtiyar Bayramov uğurlu keçən hərbi əməliyyatlarda iştirak edir, Ağdam istiqamətində gedən döyüşlərdə düşmənə layiqli dərs verirdi. Təəssüflər olsun ki, yağı gülləsi İxtiyardan da yan keçmədi. Gizir İxtiyar Bayramov 19 sentyabr 2023-cü ildə Ağdam rayonunun Gülablı kəndində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Onun nəşi 22 sentyabr 2023-cü ildə Quba Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş İxtiyar Bayramov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## BAYRAMOV DAVUD ŞAMİL OĞLU



Şəhid leytenant Davud Şamil oğlu Bayramov 1 yanvar 2000-ci ildə Salyan rayonunun Xələc kəndində anadan olmuşdur. 2006-cı ildə Salyan rayon Təhməz Şirinov adına Yuxarı Xalac kənd 2 saylı tam orta məktəbinin birinci sinfinə qədəm qoymuşdur. 2017-ci ildə həmin məktəbdən məzun olmuşdur. Həmin il Azərbaycan Texniki Universitetinə qəbul olmuşdur. 2021-ci ildə metallurgiya mühəndisliyi ixtisası üzrə aldığı ali təhsilini başa vurmuşdur. Bundan sonra Davud Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissədə xidmətə başlamışdır. 3 ay müvafiq kurslardan keçən Davud bu kursların nəticəsində leytenant rütbəsinə yüksəlmiş və bu rütbədə xidmətini davam etdirmişdir. Davud Komando Briqadasında xidmət edirdi.

Azərbaycan Silahlı Qüvvələrinin leytenantı olan Davud Bayramov 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda silahlanan erməni separatçılarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xocalı istiqamətində gedən döyüşlərdə düşmənləri darmadağın edərək vuruşmuş, böyük şücaət və igidlik göstərmişdir. Leytenant Davud Bayramov 20 sentyabr 2023-cü ildə Xocalı rayonunun Harov kəndində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Qəhrəmanımızın nəşi 23 sentyabr 2023-cü ildə Salyan rayonunun Xələc kəndində yerləşən Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır. Şəhidimiz ailəli idi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Davud Bayramov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## BAYRAMOV TAPDIQ NAMİQ OĞLU



Şəhid leytenant Tapdıq Namiq oğlu Bayramov 31 oktyabr 1998-ci ildə Quba rayonunun Qonaqkənd qəsəbəsində anadan olmuşdur. Orta təhsilini Quba rayon Qonaqkənd qəsəbə Aslan Aslanov adına tam orta məktəbində almışdır. Uşaq yaşlarından bacarıqlılığı və çalışqanlığı ilə seçilən Tapdıq tez bir zamanda atasını və anasını itirərək yetim qalmışdır. Lakin yenə də həyatda öz ayaqları üzərində durmağı bacarmış, ailəsi və Vətəni üçün sona qədər çalışmağa davam etmişdir. Ordu sıralarında hərbi xidmət edən Tapdıq Naxçıvan Muxtar Respublikasında bir müddət baş vermiş hərbi əməliyyatlarda da iştirak etmişdir.

Azərbaycan Ordusunun hərbçisi olan Tapdıq Bayramov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Bir çox hərbi əməliyyatlarda vuruşmuş, torpaqlarımızın azadlığı yolunda əlindən gələni əsirgəməyərək böyük qəhrəmanlıq göstərmişdir. Vətən müharibəsi bitdikdən sonra Tapdıq Bayramov cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir. O, hərbi xidmətini leytenant rütbəsində davam etdirirdi.

Tapdıq Bayramov 19 sentyabr 2023-cü ildə Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı rəşadətli Azərbaycan Ordusunun başlatdığı lokal xarakterli antiterror tədbirlərində iştirak etmiş, Ağdərə isti qamətində gedən döyüşlərdə böyük xidmətlər göstərmişdir. Leytenant Tapdıq Bayramov 19 sentyabr 2023-cü ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhidimizin nəşi 29 sentyabr 2023-cü ildə Quba Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Tapdıq Bayramov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## BƏDƏLOV ORUC ARİF OĞLU



Şəhid əsgər Oruc Arif oğlu Bədəlov 5 dekabr 2002-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 2022-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə, Zenit Raket Artilleriya Batareyasında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

2020-ci ilin 4 oktyabr tarixində Vətən müharibəsi gedişatında mənfur erməni vandalları tərəfindən gözəl Gəncəmiz ilk dəfə bombalanan zaman ilk raket Orucgilin evlərinə düşmüşdü... Həmin vaxt Allah Orucu və onun ailəsini pənahında saxlamış, qorumuşdu. Lakin təəssüflər olsun ki, raket hücumu zamanı Orucun xərçəngdən əziyyət çəkən anasının səhhəti hücumun şiddətindən daha da pisləşmişdir. O, uzun müddət bu ağrılara dözsə də 2022-ci ilin noyabrında vəfat etmişdir. Gəncəyə olan ilk raket hücumu və evlərinə düşən raket Orucun heç bir zaman yadından çıxmadı. O, heç zaman istəməzdi ki, bu qisas qiyamətə qalsın və şəhidlərimizin qanları yerdə qalsın. Oruc evlərinə hücum edən ermənilərdən bu zülmün heyifini çıxmaq istəyirdi. O vaxt gəlib çatmışdı. 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusu Qarabağda silahlanan erməni separatçılarına qarşı lokal xarakterli antiterror tədbirlərinə başladı. Həmin vaxt ilk olaraq döyüşlərin ən qaynar nöqtələrində Oruc vuruşur, düşməni darmadağın edir, onları evlərinə o hücumu etdiklərinə və azərbaycanlılara tarix boyu vəhşiliklər törətdiklərinə peşman edirdi. Təəssüflər olsun ki, qatil gülləsi Orucdan yan keçmədi. Gəncəyə olan raket hücumundan sağ çıxan Oruc döyüş meydanındakı vuruşmalardan sağ çıxa bilmədi...

Qəhrəman əsgərimiz Oruc Bədəlov 20 sentyabr 2023-cü ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Onun nəşi 22 sentyabr 2023-cü ildə Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Oruc Bədəlov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**SEVİNDİK NƏSİBOĞLU**
*11-ci sinif şagirdi, şair-publisist, AJB üzvü*
*(İstifadə edilmiş mənbələr: oxu.az, report.az, qafqazinfo.az, unudulmazlar.az)*